# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 107** **Bakı şəhəri, 13 aprel 2023-cü il**

***“Qida təhlükəsizliyi sahəsində məhsulların izlənilməsi Qaydası”nın təsdiq edilməsi haqqında***

“Qida təhlükəsizliyi haqqında” Azərbaycan Respublikasının 2022-ci il 5 may tarixli 523-VIQ nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin “Yeyinti məhsulları haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2000-ci il 26 yanvar tarixli 267 nömrəli, “Yeyinti məhsulları haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə bağlı əlavə tədbirlər barədə” 2003-cü il 23 oktyabr tarixli 969 nömrəli fərmanlarının ləğv edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 24 iyun tarixli 1723 nömrəli Fərmanının 1.2.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Qida təhlükəsizliyi sahəsində məhsulların izlənilməsi Qaydası” təsdiq edilsin (əlavə olunur).

**2.** Bu Qərar “Qida təhlükəsizliyi haqqında” Azərbaycan Respublikasının Qanunu dərc olunduğu gündən 2 (iki) il sonra qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

Xalq qəzeti.- 2023.- 15 aprel.- S.4.